# Lənkəranda ABŞ-nin Monterey şəhəri ilə qardaşlaşma çərçivəsində salınan "Dostluq" parkı açılıb

Lənkəran rayonunun İstisu qəsəbəsində Lənkəranla ABŞ-nin Monterey şəhəri arasında qardaşlaşmış şəhərlər çərçivəsində salınmış "Dostluq" parkının açılışı baş tutub. Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Lənkəran-Monterey Dostluq Assosiasiyasının həmsədri Nensi Selfric və Azərbaycanın Los-Anceles şəhərindəki baş konsulu Ramin Qurbanov iştirak ediblər.



Lənkəran ŞİH başçısı bildirib ki, 2011-ci ildən qardaşlaşan Lənkəran və Monterey şəhərləri ötən müddət ərzində bir-birilə sıx əlaqə qurub, münasibətlərin daha da yaxınlaşması üçün mütəmadi ünsiyyət saxlanılıb. Yeni salınan parkda gələcəkdə Monterey günlərinin keçirilməsi təklifi ilə çıxış edən icra başçısı bunun iki şəhər və toplum arasındakı münasibətlərin daha da yaxınlaşmasına xidmət edəcəyini söyləyib və dövlətimizin başçısı İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət kursunda şəhərlərin qardaşlaşmasına xüsusi önəm verildiyini bildirib. Belə ki, adət-ənənələrin, mədəni münasibətlərin, iqtisadi əlaqələrin, habelə Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılmasında şəhərlərin qardaşlaşmasının mühüm rolu var.



Ölkəmizin Los-Ancelesdəki baş konsulu R.Qurbanov qardaşlaşan Lənkəranla Monterey şəhərlərinin əlaqələrin davamlılığı və inkişafı baxımından nümunə təşkil etdiyini vurğulayaraq Vətən müharibəsindən sonra erməni diasporasının Montereydə də fəallaşdığını ifadə edib və bu baxımdan iki qardaşlaşmış şəhər arasındakı münasibətlərin inkişafının daha da genişlənməsinin vacibliyini qeyd edib. Onun sözlərinə görə, şəhərlər arasındakı qarşılıqlı əlaqələrin hərtərəfli dinamik inkişafı və toplumlar arasındakı yaxınlaşma Azərbaycan diasporasının fəaliyyətinə müsbət təsir göstərir. Baş konsul buna görə Lənkəran ŞİH başçısına və xanım Nensiyə minnətdarlığını bildirib.

Lənkəran-Monterey Dostluq Asosiasiyasının həmsədri Nensi Selfric tədbirdə iştirakdan və Lənkəranda olmaqdan məmnunluğunu dilə gətirib. "Dostluq" parkının salınmasından danışan həmsədr qeyd edib ki, son bir ildə ərazidə böyük quruculuq işləri həyata keçirilib və bu səbəbdən də yaradılan şəraitdən məmnunluğunu bildirib. Lənkərana xüsusi sevgisini ifadə edən xanım Nensi əlaqələrin daha da inkişafında maraqlı olduqlarını vurğulayıb. Xanım həmsədr qarşılıqlı əlaqələrin inkişafı və adət-ənənələrinin təbliği baxımından Montereydə də Lənkəran günlərinin keçirilməsinin əhəmiyyətindən danışıb.

Qeyd edək ki, İstisu qəsəbəsində Yaşılçay FT-nin rəhbəri Araz Yağubova məxsus ümumi sahəsi 5 hektar olan ərazidə salınan "Dostluq" parkı iki hissədən, göl və bağdan ibarətdir. Tikintisinə 2022-ci ildən başlanan parkın birinci hissəsi yekunlaşıb. Ərazidə süni göl salınıb, göldə gənclərin istirahəti üçün katamaranlar yerləşdirilib, söhbətgahlar tikilib və yaşıllıqlar salınıb. Lənkəran-Monterey Dostluq Asossiasiyasının həmsədri Nensi Selfrij tərəfindən hədiyyə olunan "Cırtdan" heykəli qurulub. Onu da qeyd edək ki, Azərbaycan folklorunun sevimli qəhramanlarından olan "Cırtdan" ABŞ-nin Kaliforniya ştatının Monterey şəhərində adına park olan oxşar qəhrəman "Denis the Menace"ni salamlayır. Parkın ikinci hissəsində isə meyvə bağları, lavanda sahəsi və gənclərin istirahəti üçün düşərgələr qurmaq üçün sahə ayrılması nəzərdə tutulub.

Sonda yeni salınan gölə tədbir iştirakçıları tərəfindən balıq buraxılıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*



Azərbaycan.- 2023.- 5 avqust.- S. 10.